

# TƏMİZ AD ÖMÜR QAZANCIDI

## QƏLƏM DOSTUM MƏHƏBBƏT İBADOVUN 80 İLLİYİNƏ

*Həmzə VƏLİMƏMMƏDOV*
*Əməkdar jurnalist*

**1954-cü ilin qışı sərt gəlmişdi. Dağlar, dərələr ağ örpəyə bürünmüşdü. Küləklər bəndi- bərəni bağlamış, gediş-gəliş seyrəlmişdi. Züvüç kəndində cəfakeş ana kimi tanınan Sərnaz xala havanın açılmasını gözləyir, oğlunu rayon mərkəzinə yola salmağa hazırlıq görürdü. Nəhayət, hava açıldı, yol-iz göründü. Ana oğlunu həyət qapısınacan ötürdü. Ayrılanda əlində tutduğu heybəni ona uzatdı:**

- Bala, içindəki azuqədir, 2-3 günə çatar. Deyirlər təzə gələn raykom rəhmli adamdı.
- Kim yanına gedir, razı dönür. Allah qoysa səni də naümüd qaytarmaz.

Məhəbbət mənzil başına çatanda gün günorta yerinə qalxmışdı. Mərkəzin girəcəyində birmərtəbəli bina məktəbyanı internat idi. El arasında bura "Şımbır" da deyirdilər. Onuncu sinifdə oxuyanda burada qalmışdı. Təsərrüfat işlərinə baxan Mütəllim əmini yaxından tanıyırdı. Görüşdülər, icazə alıb otaqların birinə keçdi. Heybəni divardan asıb raykoma yollandı.

Birinci katib nahar fasiləsindən dönəndə kabinetin qapısında cavan oğlanla rastlaşdı. Ayaq saxlayıb soruşdu:

- Ay oğul, bu şaxtalı qış günü haradan gəlibsən?
- Züvüçdən, yoldaş katib. Adım Məhəbbət, familiyam İbadovdur.

Katib gənci içəri dəvət elədi, gəlişinin məqsədilə maraqlandı. Məhəbbət cibindən dördqat bükülmüş kağızı çıxarıb katibə uzatdı. Saçlarına vaxtından tez dən düşmüş, müharibənin od-alovundan keçmiş Aslan Hüseynov ərizəni oxuyandan sonra:

- Gözəl xəttin var, fikrini də açıq yazmısan. Deməli iş istəyirsən.

Katib zəngin düyməsini basıb köməkçisini çağırdı, gənci ona təqdim elədi:

- Diribaş, savadlı oğlana oxşayır. Bizdə texniki katib ştatı boşdur, əmrləşdir. Sabahdan işə başlasın. Kasıb ailədəndi, gözün üstündə olsun.

Katib ərizənin üstünü yazıb köməkçisinə verərkən Məhəbbətdən soruşdu:

- Qalmağa yerin var?
- Hələlik Lerik kəndində xalamın evində sığınacaq taparam.
- Narahat olma, sənə ev də verərik, - deyə katib gülümsədi.

Uzaq dağ kəndindən gələn Məhəbbət İbadov ilk əmək fəaliyyətinə belə başladı.

***

Məhəbbət müəllimlə tanışlığımızın 60 illik tarixi var. Lerik orta məktəbinin onuncu sinifində oxuyurdum, həm də şagird komsomol təşkilatının katibiydim. Elə həmin il rayon komsomol təşkilatının növbəti konfransı keçirildi. Bu məclisdə nümayəndə kimi iştirak edirdim. Müzakirə olunan məsələlərin axırıncısı katibin seçilməsiydi. Üç namizəddən biri Məhəbbət İbadov idi. Plenum üzvlərindən heç də hamısı onu yaxından tanımırdı. Beş dəqiqəlik çıxışı ilə 20 yaşlı Məhəbbət savadı, səmimiyyəti, sadəliyi, natiqlik məharətiylə zaldakıları razı saldı. Ona səs verib katib seçdilər. Bu vəzifədə bacarıqlı təşkilatçı kimi yetişdi. Sorağı fermalardan, tarlalardan, sərhədçilərlə görüşdən gəldi.

Məhəbbət İbadov komsomolun birinci katibi işlədiyi dövrdə daha bir arzusuna çatdı. 1958-ci ildə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinin qiyabi şöbəsinə daxil oldu. Ali məktəb illəri onun istedadını ortaya çıxardı. Qələmə aldığı şeirlər yerli qəzetdə çap olundu, radioda səsləndi.

İllər keçdikcə Məhəbbət müəllim məsul vəzifələrə pillə-pillə qalxdı. 70-ci illərdə partiya işinə irəli çəkildi, siyasi maarif kabinetinin müdiri vəzifəsində çalışdı. Sonra təbliğat və təşviqat şöbəsinə rəhbərlik etməyə başladı. Bu vəzifədə çalışarkən Bakı Ali Partiya məktəbinə göndərildi. İki ildən sonra rayona qayıtması ilə anasının dünyadan köçməsi bir oldu.

Ulu öndər Heydər Əliyevin 1969-cu ilin yayında Azərbaycan KP Mərkəzi Komitəsinin birinci katibi seçilməsi respublikada siyasi təşkilatçılıq və quruculuq işlərinə geniş vüsət verdi, məsuliyyəti artırdı. Heydər Əliyevin apardığı kadr siyasəti rayonlarda savadlı, işgüzar, yaşadığı regionda hörmət sahibi olan adamları iş başına gətirdi. İyun plenumunun ab-havası Lerikdə də özünü göstərdi. Məhəbbət İbadov rayon partiya komitəsinin ikinci katibi seçildi. Rayon mərkəzi xəstəxanasının baş həkimi vəzifəsinə mərhum Qulamhüseyn Əsgərov təyin olundu. Bu sətirlərin müəllifi rayon qəzetinin redaktoru təsdiq edildi. Kolxoz və sovxozların əksəriyyətinin rəhbərliyi mütəxəssislərə tapşırıldı. Beləliklə, əhalinin güzəranını yaxşılaşdırmaq, nizam-intizamı möhkəmləndirmək, ideoloji işi yeni tələblər səviyyəsində qurmaq üçün əməli işlər görüldü.

70-ci illərdə Lerikin iqtisadi və mədəni həyatında dönüş mərhələsi başlandı. Kənd təsərrüfatının inkişafına, məktəb və mənzil tikintisinə, yeni xidmət müəssisələrinin açılmasına, yolların çəkilməsinə, üzüm və meyvə bağlarının salınmasına xüsusi diqqət yetirildi. İdeoloji işin əsas istiqaməti də bu məsələlərə yönəldildi. Məhəbbət İbadov kəndlərdə keçirilən tədbir və görüşlərə təhsil, səhiyyə, mədəniyyət təşkilatlarının, digər xidmət müəssisələrinin nümayəndələrini dəvət edir, sakinlərin qaldırdıqları problemlərin yerindəcə həllinə nail olmaq üçün məsləhət və göstərişlər verirdi.

Raykomun plenum və büro iclaslarında Məhəbbət müəllim heç zaman əməldə bir, dildə başqa olmayıb, obyektivliyi, prinsipiallığı, sözübütövlüyü ilə seçilib. Müzakirələrdə onun əsaslandırılmış təklifləri nəzərə alınıb. Yaxşı yadımdadır, rayon qəzeti kolxozların birində təsərrüfatsızlığı ciddi tənqid eləmişdi. Məqalə büro iclasında müzakirəyə çıxarılmışdı. Hiss olunurdu ki, bəzi büro üzvləri yumşaq qərarın tərəfdarıdır. Ancaq İbadov kəskin danışırdı, kolxozda kadr dəyişikliyinin zəruri olduğunu faktlarla əsaslandırdı. Dedikləri kiminsə xoşuna gəlməsə də, düz sözü söyləməkdən çəkinmədi. Qəzetin mövqeyi müdafiə olundu. Bir ildən sonra təsərrüfatda əmək intizamı möhkəmləndi, gəliri çoxaldı. Belə misalların sayını artırmaq da olar.

1975-ci ildə rayon sovetinə seçkilər başa çatdı. Bir həftədən sonra seçilmiş deputatlar sessiyaya toplaşdı. Ağsaqqal deputatlar icraiyyə komitəsinin sədri vəzifəsinə yeganə namizəd Məhəbbət İbadovu irəli sürdülər. Müzakirə çox vaxt aparmadı. Çünki Məhəbbət İbadovun təşkilatçılıq bacarığı, ictimaiyyətdə nüfuz və hörməti, insanlarla ünsiyyəti, təmiz adı bu vəzifəyə haqq



verirdi. Deputatlar ona səs verib bir daha etimad göstərdilər. Sədrə tapşırıqlar, məsləhətlər də oldu.

Bu dövrdə rayonda tikinti-abadlıq işləri geniş vüsət almışdı. Lerik qəsəbəsində, kəndlərdə mənzil tikintisi ümumxalq işinə çevrilmişdi. Üzümçülük təsərrüfatlarının gəliri hesabına yollara asfalt döşənir, kiçik dağ çayları üzərinə körpülər salınır, şərab və asfalt zavodları tikilirdi. Bütün bu işlər rayon zəhmətkeş deputatları soveti icraiyyə komitəsinin nəzarəti altında görülürdü. Məhəbbət İbadov iş üstündə əməli köməklik göstərir, kəm-kəsrləri deputatların və ictimaiyyətin köməyi ilə yoluna qoyurdu. Onun iş vaxtı bəzən gecədən xeyli keçənədək çəkirdi. Təsərrüfatlarla əlaqə saxlayıb, işlərin gedişi barədə ətraflı məlumat alıb rahatlıq tapırdı.

Məhəbbət müəllim icraiyyə komitəsinə rəhbərlik etdiyi illərdə vətəndaşlara mənzil, minik maşını verilməsində süründürməçiliyə son qoyuldu. Ev tikmək istəyənlərə torpaq sahəsi ayrıldı, inşaat materialları almaqdan ötrü şərait yaradıldı. Bunlara görə o, maneələrlə rastlaşsa da, ruhdan düşmədi, mövqeyini qoruyub saxladı.

***

Keçən əsrin 80-ci illərinin sonunda, 90-cı illərin əvvəllərində respublikada hərc-mərclik baş alıb gedirdi. Ölkəyə yararsız rəhbərlik regionlarda özbaşınalığa gətirib çıxarmışdı. Lerik rayon partiya komitəsinin katibi 20 yanvar hadisələrindən sonra qaçıb Bakıda gizlənmişdi. Ağsaqqallar çıxış yolu axtarırdılar. Nəhayət, yekdil qərara gəldilər: Məhəbbət İbadovu rəhbər seçmək. Məsələ Mərkəzi Komitəyə çatdırıldı. Aradan bir həftə keçməmiş qaçmış katib rayonda peyda oldu. Yuxarıdan göstəriş gəldi ki, o, yenidən seçilməlidir. Konfrans nümayəndələrinin fikri qəti idi. Onları heç bir qüvvə verdikləri sözdən döndərə bilmədi. Məhəbbət İbadovu raykomun üzvü seçdilər. Plenum ona rayona rəhbərliyi tapşırdı. Birinci katib seçilən M.İbadov fəalların gücünə arxalanıb bir sıra məsələləri həll etməyə başladı. Birinci növbədə rayonda sabitliyi bərpa etmək üçün tədbirlər gördü. Əhalinin ərzağa ehtiyacını daxili imkanlar hesabına ödəməyə nail oldu. Bəzi xidmət təşkilatlarında kadr dəyişikliyi apardı, ziyalılar arasında yersiz giley-güzarı ağsaqqalların köməyi ilə yoluna qoydu.

Azərbaycan SSR Ali Sovetinə seçkilər rayonda başa çatdı. Nüvədi dairəsinin seçiciləri Məhəbbət İbadovu respublikanın ali hakimiyyət orqanına deputat seçdilər. O, deputat mandatı ilə ulu öndər Heydər Əliyevin mövqeyini müdafiə edənlərdən, hakimiyyətə gəlməsinin tərəfdarlarından biri idi və buna görə fəxr edir.

Cənub bölgəsində 1993-cü ildə baş verən hadisələri xatırlayıram. Belə çətin günlərdə mən rayon təhsil şöbəsinə rəhbərlik edirdim. Hər gün qəbuluma neçə-neçə müəllim gəlir, fikir mübadiləsi aparır, separatçılara qarşı qəti etirazlarını bildirirdilər. Söhbətlər zamanı milli birliyimizi, dövlətçiliyimizi qorumağı, böyük şəxsiyyət Heydər Əliyevin xalqımızın yeganə lideri olduğunu faktlarla əsaslandırırdıq.

Günlərin birində eşitdim ki, "Talış-Muğan respublikası" yaratmaq xülyasına düşənlər Lerikə gəliblər. Rayon sovetinin sədri Məhəbbət İbadova zəng eləyib məsələdən hali olmaq istədim. Danışığından hiss elədim ki, həyəcanlıdır. Dedi ki, çağırılmamış qonaqları sovetin binasına ayaq basmağa belə qoymadım. Məni silahla qorxudub sessiya çağırmağı tələb elədilər. "Bizim bir Vətənimiz var - Azərbaycandır, bir rəhbərimiz var - Heydər Əliyevdir" deyib onları suyu süzülə-süzülə yola saldım.

Məhəbbət müəllim müstəqillik illərində rayon icra hakimiyyətində şöbə müdiri işləyirdi. Zəngin təşkilatçılıq təcrübəsindən kollektivin gənc üzvləri bəhrələnir, məsləhətlərinə ehtiyac duyurdular. 2005-ci ildə özünün təkidi ilə təqaüdə çıxdı. Bu gün rayonun ictimai həyatından kənarda qalmayıb. Veteranlar və ağsaqqallar şuralarının fəal üzvüdür. Ömrünün 80-ci ilini yenicə qarşılayıb. Övladlarının, nəvələrinin qayğısı ilə ömür-gün dostu Şəfiqə xanımla ahıl çağlarını yaşayırlar. Əli işdən, ürəyi arzudan hələ soyumayıb. Saldığı bağı becərir, asudə vaxtlarında mütaliədən qalmır, tay-tuşları ilə görüşüb həmsöhbət olur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Lerikə ilk səfərində Məhəbbət müəllim ictimaiyyət adından danışaraq demişdir ki, bizim üçün gördüyünüz işlərin ən mühümü əlbəttə, Lənkəran - Lerik yolunun tikintisidir. Yaşlı bir adam kimi demək istəyirəm ki, hələ Lerikə dövlət səviyyəsində belə möhtəşəm qayğı göstərilməmişdi.

Dövlət orqanlarında səmərəli və qüsursuz fəaliyyətinə görə sovet məkanında iki dəfə "Şərəf nişanı" ordeninə, bir neçə medala, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanına layiq görülüb. Bu günlərdə Azərbaycan Ağsaqqallar Şurasının Fəxri Fərmanı ilə təltif olunub.

**Yaşlaşmaq uca zirvələrə səfərdir. Ömrünün yarım əsrini məsul vəzifələrdə keçirən, pillə-pillə yüksələn Məhəbbət müəllim 7 övlad atası, 21 nəvə və 12 nəticə babasıdır. Nə maşını var, nə də dəbdəbəli evi. İki oğlu ilə halal zəhmətlə tikdiyi dördotaqlı evdə yaşayır. Uzun illərdən bəri qazancı təmiz adı, el-obasına şərəfli xidməti, bir də dövlətimizə və dövlətçiliyimizə sədaqətidir. Belə ömür heç də hamıya nəsib olmur.**